*Məmməd İsmayıl*

# *Emelin nağılı*

Emel şeir istəyir
Hər dəfə dədəsindən.
Quş olub göyə uçsun
Az qalır həvəsindən.
-Bəs nəyi gözləyirsən,
Ay dədə,belə olmaz.
Hamıya yazdığından
Birini də mənə yaz.
Dədə:-Baş üstə deyir,
Sənə qurbandı şeir.
Sen bir şeir deyirsən,
Mən beşini yazaram.
Sən özün də şeirsən,
Ay mənim gözü qaram.

O əməldi, Emeldi,
Gözəlliyə təməldi.
Bir soyun ürəyidi,



Bir evin dirəyidi.
Saçı dağ şəlaləsi,
Nəfəsi gül qoxuyur.
Türkçə danışır, gah da
Fıransızca oxuyur.
Qızmı var Emel kimi,
Bacısı Sibel kimi.
Qaynayıb qarışırlar,
Küsürlər barışırlar.
Emel bele Emeldi,
Gözəlliyə təməldi.

Keçen il dədəsinin
Yurduna getdi Emel.
Görüşünə axışdı
Bütün oba, bütün el.
Nə bezdi, nə yoruldu,
Durub gəzdi hər yanı.
Kənd onun heyranıydı,
O da kəndin heyranı.
Baxdı Qızıl qayaya,
Baxdı Kəmər qayaya.
Vuruldu Günə, Aya,
Hər daşa, hər qayaya.
Bulaqlardan su içdi,
Əsrik çayından keçdi.
Bu yerlərə hər sənə
Gəlməyinə and içdi.

Parisdə böyüyürmüş.
Bu kəndin Emel qızı.
Dünen Paris qızıydı,
Bu gün oldu el qızı
Gün olsun, adın ilə
Öyünsün elim mənim.
Atan Nikoyla birgə,
Anan Sevinclə birgə,
Bacın Sibellə birgə,
Allah səni qorusun
Gözel Emelim mənim...

Ədalət.- 2020.- 23 yanvar. S. 4.